**AYTAC HƏMIDLİ**
**Qərbi Kaspi Universiteti**
**aytacveliyeva@gmail.com**

# TEODOR DRAYZERIN "AMERIKA FACIƏSI" ROMANINDA AMERIKA ARZUSUNUN TƏZAHÜRÜ

Açar sözlər: "Amerika faciəsi", Amerika arzusu, mühit.
Ключевое слово: "Американская трагедия", американская мечта, общество.
Key words: "American Tragedy", American dream, society.

Henri Devid Toro deyir: "Arzular bizim xarakterimizin tacıdır" (1. (2008). Amerika arzusu məfhumu bütün insanların bərabər olduğu ideyasını bəyan edən Amerika Birləşmiş Ştatlarının İstiqlaliyyət Bəyannaməsi ilə meydana çıxdı. Bu məfhum Amerikan milli leksikologiyasında ən geniş yayılmış ifadələrdən biridir, hətta o qədər tanış bir məfhumdur ki, nadir hallarda onun mənşəyi, tarixi və ya nə məna kəsb etdiyi barədə suallar soruşula bilər. Amerika arzusu qədim dövrlərin zəvvarlarından tutmuş müasir dövrün nümayəndələrinədək hər kəsin şəxsiyyətini formalaşdırmış və özündə əks etdirmişdir. Digər millətlərdən fərqli olaraq Birləşmiş Ştatlar özünü irqi, dini, dil, coğrafi və ya tarixi faktlar əsasında yox, məhz İstiqlaliyyət Bəyannaməsində ifadə edilmiş bir sıra hədəflərə əsasən müəyyənləşdirir. Amerika arzusu müvəffəqiyyət, xüsusilə də maddi cəhətdən müvəffəqiyyət qazanmaq kimi dərk edilir, qısa müddətdə varlanmaq onun əsas mahiyyətini təşkil edir. Həmin anlayış Qərbə getmək və milyonçu olmaq idi. Bütün Amerikanlar kimi Amerika ədəbiyyatı da demək olar ki Amerika arzusu haqqında idi və Teodor Drayzer bu mövzuya toxunan yazıçılar arasında mühüm yer tutur.

Tədqiqat işinin məqsədi 20- ci əsr Amerika cəmiyyətində mövcud olan ideyalarin və dəyərlərin həmin dövr nümayəndələrinin həyat tərzinə təsirini və onların var - dövlət və xoşbəxtlik axtarışına çıxaraq öz arzularını necə həyata keçirdiklərini araşdırmaqdır. Tədqiqat işində naturalizm nöqteyi - nəzərdən Teodor Drayzerin "Amerika Faciəsi" əsərinin baş qəhrəmanı olan Klayd Griffsin Amerika Arzusunu həyata keçirtmək üçün apardığı mübarizədə onun cəmiyyətdəki materialist məsələlərin qurbanına çevrildiyi göstərilir.

20-ci əsrin əvvəlində Amerika xalqının mübarizəsindən bəhs edən əsər dövrün məşhur naturalist yazıçısı Teodor Herman Drayzerin yaradıcılığının məhsuludur. 1925-ci ildə nəşr olunan əsər dünya şöhrətli yazıçının şah əsəri hesab olunur. O inanırdı ki, "insanlar onlardan asılı olmayan ictimai

qüvvələrin və instinktlərin əlində acizdir"(2. 2009). Kasıb bir ailənin sağ qalan on uşağından doqquzuncusu olan Drayzer özü də kasıblıqdan əziyyət çəkmiş və məhz o miskin həyat tərzi onu Amerikada xoşbəxtlik və var-dövlət axtarışına çixmağa vadar etmişdir.

Drayzer əsəri sənayeləşdirmə dövründə, 1 - ci Dünya müharibəsindən dərhal sonra yazıb. Həmin vaxt Amerikada həyat tərzinin tamamən dəyişməsinə səbəb olan urbanizasiya və sənayeləşmə prosesləri baş verirdi. Cəmiyyət insan həyatının iqtisadiyyat, texnologiya, ictimai münasibətlər və əxlaq kimi sahələrini dəyişdirdi. Amerika gözlənilməz iqtisadi inkişafın, texnoloji nailiyyətlərin və ictimai çevrilişin səbəb olduğu kef və problemlərlə xarakterizə olunan müasirliyə doğru gedirdi(3.1998). Bu fenomen Amerika daxilində yeni qaydaların və ictimai təşkilatların yaranmasına səbəb oldu; o mühitdə ki varlı təbəqə dəbdəbə və var - dövlətdən zövq alir,  kasıblar isə sadəcə sağ qalmaq üçün mübarizə aparırdı. Beləliklə, bu hadisə Amerikanların müvəffəqiyyət, pul və ali ictimai nüfuz qazanmaq üçün can atdıqları "Amerika arzusu" adlandırılan bir məfhumun reallaşmasına yol açdı.

Amerika arzusu əvvəlcə xoşbəxtliyin kəşfi və axtarışı haqqında idi. Amerikanların xoşbəxtlik anlayışı müvəffəqiyyət,  pul qazanmaq və yüksək nüfuz sahibi olmaqla məhdudlaşırdı. Əksər amerikalının fikrincə, var - dövlət və ad-san problemləri həll etmək və xoşbəxt yaşamaq üçün mütləq şəkildə açar rolunu oynayırdı(2.2009). Amerika arzusu belə bir ideyaya əsaslanırdı ki, kasıb olan hər kəs zəhmətkeşlik və əxlaqi yaxşılıq sayəsində tərəqqi edə bilər. Ancaq Amerika arzusu pul ilə, ümumiyyətlə maddiyyatla bağlı olduğundan əxlaq tərbiyəsi tədricən dünya şöhrəti qazanmaq ideyası ilə əvəz olundu. Beləliklə, Amerika arzusunun mənfi cəhəti - var-dövlət və nüfuz qazanmaq istəyi - əxlaq hissini üstələyir. Məhz bu amil 1920-ci illərdə "çürümüş" ictimai və mənəvi dəyərlərin mövcud olmasının əsas səbəbi idi. Pula və əyləncəyə olan hədsiz həvəs nəcib məqsədlər qazanmaq fikrini yox etdi" (4.2008).

Məhz bu anlayış Drayzer romanının qayəsini təşkil edir. "Amerika faciəsi" ümidsiz halda xoşbəxtlik və uğur qazanmaq axtarışında olan, lakin bu prosesde həyatından belə məhrum olan və sonda məğlub olan Klayd Qriffitin hekayəsindən bəhs edir (5.1964). Romandakı hadisələr insanların Amerika arzusunun vətəni hesab etdiyi Kansas və Nyu-Yorkda baş verir. Əsərin baş qəhrəmanı olan Klayd aşağı təbəqənin nümayədəsidir.Ailə üzvlərinin paltardan qidaya qədər hər şeyə ehtiyacı var idi. Dini ayinləri icra etməklə məşğul olan, sadə və kasıb bir ailədə böyüyən Klayd hələ erkən yaşlarından Amerikan cəmiyyətində mövcud olan materializmin təsirinə məruz qalmışdı. Klayd mağazalarda müxtəlif, qəribə işlərdə işləyərək pul qazandığı halda onun həmyaşıdları məktəbə gedirdi. Ailəsinin fikrincə

onlarə miskin həyat tərzindən xilas edə biləcək yeganə qüvvə dindir. Klayd isə fikirləşirdi ki, onların kasıb olmasının yeganə səbəbi dindir və həyat küçələrdə dini mahnıları ifa etməkdən daha vacibdir. İnsanların həyatında müxtəlif çatışmazlıqlara səbəb olan kasıblıq onu ailəsindən uzaqlaşaraq sərbəst yaşamağa vadar edirdi. Hətta o ailəsi ilə birlikdə dini missiyaları yerinə yetirmək məcburiyyətində olduğu zamanlarda belə başa düşürdü ki, ibadətlər onlara bir şey qazandirmayacaq və dinə inam onların miskin həyat tərzinə son qoymayacaq.Beləliklə, onların yaşadığı dövrdə din yox, pul əsas amil oldu və onların pula, var-dövlətə aludə olmağının yeganə səbəbi kasıblıq idi. Ümumiyyətlə, Klayd ailəsinin məşğul olduğu bu işə görə çox utanırdı.Yazıçının fikrincə xarakter getdikcə ailəsindən uzaqlaşırdı. Drayzer onu belə təsvir edirdi: "Klayd kasıb idi, ancaq bir o qədər də məğrur idi. O, cəmiyyətin varlı təbəqəsinin nümayəndələri kimi ozünü mötəbər bir şəxs hesab edirdi. O elə davranırdı ki, sanki doğulduğu ailə ilə heç bir əlaqəsi yoxdur" (5. (1964),p.18*)*. O, valideynlərinin həyat tərzini davam etdirməmək fikrində qərarlı idi. Marqaret Dreblin də qeyd etdiyi kimi o, sadəlövh, təbliğatçı valideynlərin oğlu idi.(6). Belə bir vəziyyətdə onun yeganə məqsədi işləmək, pul qazanmaq və kimsə olmaq idi. Beləliklə, dini mühitdən canını qurtarmaq üçün Klayd həmin maraqlı və həyəcanlı həyat tərzinə can atmağa başladı. Gözəl paltarlar geyinmək, bahalı maşınlarda gəzmək və restoranlarda nahar etmək istəyi onu Amerika arzusunun ardınca qaçmağa vadar etdi.

Klaydda bu cür dünyagörüşünü formalaşdıran amil cəmiyyətdə maddi dəyərlərə verilən önəm idi. Başqa sözlə desək, Drayzerin romanı "cəmiyyətin ətraflı şəkildə təsviridir... bu roman Amerika həyat tərzinin acı reallıqlarını və Amerika arzusunun görünməyən tərəflərinin misli görünməmiş təsvirini özündə ehtiva edir(5. 1964). Beləliklə, Amerika mühitindəki dəyərlər pul, müvəffəqiyyət və həssas zövq kimi maddi və dünyəvi məfhumlar vasitəsilə Klaydda xoşbəxtlik və uğur axtarışı arzusunu reallaşdırdı. Ancaq onun mövcud vəziyyəti belə bir xoşbəxtliyə nail olmaga imkan verməmdiyindən Klayd öz Amerika arzusunu reallaşdırmaq üçün hər bir vasitəyə əl atmaq məcburiyyətində qalır. Onun xoşbəxtlik axtarışının əsasını qoyan hadisə isə onun Qrin-Deyvidson adlı dəbdəbəli bir oteldəki işi oldu. Bu işdə əvvəlki işlərinə nisbətən daha çox pul qazandığından o, öz qapıçı vəzifəsinə çox önəm verirdi. Eyni zamanda, o qazandığı məvacibi çox dəyərli, eyni zamanda həm müqəddəs, həm də sirli bir xəzinə hesab edirdi, çünki kiçik əyləncələri ödəyə bilməyəcək qədər az olmasına baxmayaraq məhz həmin məvacib onun arzusuna nail olmaq üçün atdığı ilk addımlarının göstəricisi idi (5 (1964). p.42*)*. Onun daha yaxşı iş tapmaq yolunda atdığı addımlar hətta böyük bir fabrikin sahibi olan əmisi Samuel Qriffit və əmisi oğlu Gilbertin yaşadığı Lycirgus şəhərinə də gedib çatmışdı. O, əmisinin

timsalında Amerika arzusunu daha aydın təsəvvür edə bildi. Atasından fərqli olaraq əmisi dəbdəbəli evi və üç yüzdən çox işçisi olan böyük bir fabrikin sahibi varlı bir insan idi. Buna görə də o, əmisinin yolunu davam etdirmək üçün əlindən gələni etmək qərarına gəldi. Ancaq Klayd bilmirdi ki, kasıblıqdan canını qurtarmaq və varlı həyat tərzi keçirtmək üçün addığı addimlar onun faciəsinə gətirib çıxaracaq.

Bundan başqa, Klaydı şöhrətpərəst bir insan kimi formalaşdıran cəmiyyət həm də onun xoşbəxt olmaq və müvəffəqiyyət qazanmaq arzusunun əvəzinə məhvinə səbəb olaraq həyatına son qoydu. Hovenin də qeyd etdiyi kimi,(5) Amerika arzusu yaxşı xasiyyətli ancaq zəif insanları kasıblıqdan xilas edib onlara var-dövlət qazandırır, ancaq bu arzu vasitəsilə bu pilləyə çatanlar onlara xoş, səmimi münasibət göstərən insanların həyatını qurban verməklə buna nail olur. Klaydın işləməyə başlaması onu təkcə var-dövlətlə yox eyni zamanda faciəsinin ikinci səbəbi olan gözəl qızlarla tanış etdi. O, bu aləmə o dərəcədə alüdə oldu ki hətta o qızlara görə pula ehtiyacı olan ailəsindən maaşını gizlətdi. O, bilirdi ki, kiminləsə münasibətdə olması onun maddi vəziyyətindən, yəni qızlara hədiyyə və paltar ala bilməsindən asılı idi. Qızlara münasibətdə Klaydın diqqəti cəlb edən cəhəti o idi ki, o hər qızla evlənmək fikrində deyildi, o, sadəcə onlarla vaxt keçirtmək istəyirdi. Başqa sözlə desək, o, kasıb qızlarla evlənmək fikrində deyildi, yüksək təbəqədən olan bir qız ilə evlənmək onun arzusu idi.

Klayd Amerika arzusu axtarışında olarkən əmisinin fabrikində işləyən kasıb bir ailənin qızı Roberta ilə tanış olur və onunla nişanlanır. Əmisi oğlu Gilbertin fabrik işçiləri ilə münasibət qurmaması haqqında xəbərdarlıqlarına baxmayaraq Robertanın hamilə olmasına səbəb olur, halbuki həmin vaxt o, arzusunun əsl cavabı olan Sonya adlı varlı, gözəl və yuksək təbəqənin nümayəndəsi olan bir qadınla tanış olmuşdu. Klayd Robertanın hamiləliyi barədə məlumat əldə edəndə dərhal doğulmamış körpəsindən canını qurtarmağa çalışır, çünki anası kimi uşağı da ona yeganə arzusunu - müvəffəqiyyət qazanmaq istəyini yerinə yetirməyə mane olacaqdı. Yuxarıda qeyd etdiyim kimi, Klayd kasıb qızlarla münasibətində ciddi deyildi, o sadəcə onlarla vaxt keçirtmək istəyirdi. Əlbəttə, qadın gözəlliyi onun üçün vacib idi, ancaq var-dövlətsiz gözəllik heç nəyə dəymirdi. Beləliklə, Griffits fabrikində başlayan yeni həyatında kasıb təbəqəni təmsil edən Roberta Alden və yüksək zümrənin nümayəndəsi Sondra Finçley Klaydın arzusunun baş qəhrəmanı oldu.

Amma bir həqiqət var ki heç kəs bütün arzularını reallaşdıra bilmir, xüsusilə də Klaydın arzusu kimi əlçatmaz olan arzular ele arzu olaraq da qalır. Onun arzusuna çatmasına mane olan yeganə səbəb məhz odur ki, həyatı bahasına başa gəlmiş olsa belə ona problem yarada biləcək oğlundan canını qurtarmışdı. Klayd təşkil etdiyi sui-qəsdlə Robertanın həyatına son

qoydu və bu addımı ilə o nəinki arzusunu hətta həyatını belə itirmiş oldu. O, ölüm cəzasına məhkum edilərək həbs edildi, başqa sözlə desək, haqq-ədalət sonda öz sözünü dedi. Beləliklə, Klayd ictimai problemlərin, günahsız Roberta isə onun arzusunun qurbanı oldu. Amerika arzusu onu ədəb və xeyirxahlıq kimi hisslərdən məhrum etmişdi.

Klaydın etdiyi hərəkətlərdən aydın görünür ki, o, cəmiyyətin təsiri altında formalaşan bir gənc və Amerika mədəniyyətinin əsiridir. O da insandir, ancaq Drazyerin göstərdiyi kimi ictimai qüvvələrə və cəmiyyətə qarşı mübarizədə acizdir. O bir insandır, ancaq görəsən kimsə nə vaxtsa onu başa düşəcək və insan olduğuna görə ona haqq qazandıran olacaq?( 5.(1964). Valideynlərinin Klaydı dini, əxlaqi cəhətdən mükəmməl tərbiyə etməsinə baxmayaraq heç bir qüvvə onda öz arzusuna qarşı müqavimət göstərmək bacarığını formalaşdıra bilmədi, çünki bu romanda onun şəxsiyyətini formalaşdıran arzular dindən daha vacib idi.

O, arzusunun ardınca qaçdıqca öz faciəsinə daha da yaxınlaşdı. Amerika arzusu tələsinə düşərək materialist Amerika cəmiyyətinin bir üzvü olmaq üçün müvəffəqiyyət və xoşbəxtlik axtarışına çıxan Klayd Qriffis sonunda həyatını məhv etdi. Bu hadisə onun cəmiyyətin əsirinə çevrildiyini və var-dövlət, şan-söhrət qazanmaq üçün hər bir vasitəyə əl atdığını sübut edir.

"Amerika faciəsi"ndə Drayzer Klaydın obrazında yalançı, saxta "Amerika arzusu" ardınca kor-koranə qaçan, ucuz yolla var-dövlətə, şan-şöhrətə can atan, arzularına aparan yolda əl-ayağına dolaşan hər kəsi və hər şeyi məhv etməyə hazır olan və nəhayət öz insanlıq simasını itirərək cəmiyyətin hissiz və duyğusuz robotuna çevrilən milyonlarla gəncin surətini canlandırmışdır. Bu isə təkcə Klaydın deyil, bütün Amerikanın faciəsidir.

## Ədəbiyyat siyahısı

1.*The Great Gatsby - Teacher's notes* (2008). Retrieved 2 April 2014 from 4.http://www.penguinreaders.com/pdf/downloads/pr/teachers notes/9781405879910.pdf

2.Zhang, C. & Zhang H. (June 2009). *From American dreams to American tragedies Theodore Dreiser's ponderation on American society and ruination of morality.* Retrieved 2 April 2014 from

3.Orlov, P. A. (1998). *An American tragedy: Perils of the self-seeking "success".* Retrieved 2 April 2014 from

4.http://books.google.com.ph/books/about/An_American_Tragedy.html?id=3aTGI GExOcC&redir_esc=y

5.Dreiser, T. (1964). *An American tragedy.* New York: Penguin Putnam.

6.http://ccsenet.org/journal/index.php/ass/article/view/2477/2324

**A.Hamidli**

## Reflection of American Dream in the novel American Tragedy by Theodore Dreiser

### Summary

XIX century can be considered a turning point in American literature. During this period such literary trends as romanticism and critical realism existed in America. And it was the existence of such literary trends that made it possible to deal with social issues in literature.

At the end of the XIX century American literature needed a talented writer who would continue the realist tendencies of M. Twain and F. Norris's literary activity in the standards of new claims. And it was Theodore Dreiser who criticized American bourgeoisie and tore its mask by introducing new perspectives into American novel. He was a pre-eminent American realist man of letters who created the largest panorama of American life in his works. He learnt the American truth profoundly through the hard life test.

Almost in all his novels he depicted the problems of society – ordinary people's absence of civil rights, exploitation of their labour by capitalists, domination of dollar, betrayal of press and other features of American life style.

American Tragedy is Clyde Griffith's story who dedicates his life for desperate search of success. The characteristic feature of the work is that millions of young people like Clyde who follow American Dream blindfold become heartless, insensible robots of society by losing their human dignity, they yearn for wealth and fame, thus, they are ready for to annihilate everyone and everything that is an obstacle on their way to their dreams. On a deeper, more profound consideration, this work is the skillful depiction of the society the characteristic features of which both give a shape to Clyde's ambitions and seal his fortune; it is an unrivalled portrayal of harsh realities of American life style and of the dark side of the American Dream.

**А.Гамидли**

# Отображение американской мечты в произведении Теодора Драйзера «Американская трагедия»


## Резюме

XIX век по праву считается поворотным пунктом в американской литературе. В этот период в Америке существовали такие литературные жанры, как романтизм и критический реализм. Именно существование данных литературных течений предоставило возможность отображать в литературе социальные проблемы общества.

В конце XIX века американская литература остро нуждалась в талантливом писателе, который смог бы продолжить реалистическое наследие писателей типа М.Твена и Ф. Норриса, в рамках современных стандартов. Таким писателем стал Теодор Драйзер. В своих произведениях он остро критиковал американскую буржуазию и мастерски срывал с неё маску, привнеся, таким образом, свежий взгляд в жанр романа. Драйзер был первым в рядах писателей–реалистов, кто мастерски передал все стороны американской жизни в своих произведениях. Он усвоил суть настоящей американской жизни по урокам, которые ему преподала его суровая жизнь.

Почти во всех своих произведениях автор показывает проблемы общества: отсутствие гражданских прав обычных людей, эксплуатация их труда со стороны капиталистов, доминирование доллара, предательство прессы и многие другие черты американской жизни.

«Американская трагедия» - это история Клайда Гриффита, который посвятил свою жизнь поиску успеха. Характерной чертой данного произведения является тот факт, что миллионы таких же молодых людей, как Клайд, которые слепо гонятся за американской мечтой, становятся таким же бессердечными, бесчувственными роботами общества. Они теряют своё человеческое достоинство, жаждут богатства и славы, и готовы уничтожать всё и вся на пути к их мечте. При более глубоком анализе эта работа представляет собой умелое описание общества, характерные черты которого придают форму амбициям Клайда и отпечатывают его состояние; это непревзойденное изображение суровых реалий американского образа жизни и темной стороны американской мечты.


**Rəyçi: Şəfəq Dadaşova**
**Filologiya elmləri doktoru, dosent**